# DÜNYANIN ACI DADI...



Birbaşa dərdin özündən danışmaq həmişə çətin olub. Azər Abdullanın haqqında danışmaq mənim üçün dərdin özündən danışmaqdır. Amma Azər Abdullanın özü mənə nə qədər doğma və yaxın olsa da, onun haqqında nə isə danışa bilməməyimin səbəbini həmişə axtarmışam. Taki, onun "Kəpənək bayramı" kitabını oxuyanacan mənə qaranlıq gəlib ki, axı mən nə üçün müasirim olan, artıq Azərbaycan ədəbiyyatının klassikləri sırasında yer tutan bir sənətkarın haqqında danışa bilmirəm?

Bilmirəm nə dərəcədə ritorikdir, yabirbaşadır... ancaq bu sualın cavabını Azər Abdullanın "Kəpənək bayramı"nı oxuyandan sonra düşündüm ki, qismən anladım. Əvvəla onu deyim ki, Azər Abdullanın "Kəpənək bayramı" kitabının üz qabığında anonssayağı verilmiş "Gerçək olaylar əsasında yazılan povest və hekayələr" qeydlərə tapınan əsərlər toplusunu oxuyandan sonra bəzi mətləbləri anladım.

Anladım ki, Azər Abdulla təbiəti etibarı ilə gizlinə çəkilmiş bir müəllifdir. Bu o demək deyil ki, məni görmə, görsən ölərəm. Yəni o, bir qədər çılpaq desəm "məni gör" azarına müptəla olmayıb. Zəngin ədəbi irsə, yaradıcılıq imkanlarına malik olan Azər Abdullanı biz nə qədər tanıyırıq?

Cavab... Bəlkə də qədərincə tanıyırıq. Çünki Azər Abdullanı tanımaq üçün gərək onun yaşadığı mühitlə ardıcıl tədqiqatda olaq. Və kimin bu barədə yazdığını öyrənək. Onda bəlkə də Azər Abdullanı tanıya bilərdik.

Azər Abdullanın zəngin yaradıcılığı var. Bu öz yerində. Onun yeni zaman faciəsini yazıya gətirən əsərlərini sadəcə oxumaq yox, həm də tədqiq etmək, həm dövrü öyrənmək, həm də ədəbi fakt kimi yazıçının yaradıcılıq taleyini öyrənmək deməkdir.

"Kəpənək bayramı" kitabını pandemiya dövründə oxudum. Hətta belə bir hissdə mənə hakim idi ki, bəlkə müəllif bu əsəri oxumağım haqda xəbər tutmayacaq. Mən bilmirdim ki, bu "Karona" deyilən bəla mənim yaxamdan nə vaxt yapışacaq. Və ona təəssüf edirdim ki, əsəri oxumağım haqqımda müəllifin məlumatı olmayacaq.

Danışdım, təəssüratımı bölüşdüm. Hiss elədim ki, dediyim fikirlər müəllifi çox duyğulandırır...

"Qəmərlidən keçən qatar"... elə bu qatar mənim ömrümdən də keçib. Çünki, Azər Abdulla ilə mən eyni çay - Araz boyunca, məlum yol - Qəmərlidən keçən qatarın yolu boyunca yaşanan həyatın şahidləriyik. Biz eyni yolun övladlarıyıq.

"Qəmərlidən keçən qatar" da baş verən hadisələr Azərbaycan xalqının taleyindən keçən vaxt qatarında baş verən hadisələrdir.

Yazıçı məharəti, yazıçı gücü özünü onda diqtə edir ki, o iki-üç ssatın içərisində, olsun lap beş saatın içərisində baş verən hadisələri bütöv bir tale axarına çevirə bilir.

Hələ 88-ci ilə çox qalır. Ən azı on beş ildən də çox. Yazıçı milli münaqişədən danışmır. Amma ermənistandakı dəhşətli zəlzələnin zamanından 12 il əvvəli xatırladır. Yəni hələ sovet hakimiyyəti kifayət qədər gücündədir. Bəs belə bir vaxtda Qəmərlidən keçən qatarda baş verən hadisələr hansı zəmin üzərində baş verirdi? Əsərin lap əvvəlində müəllif Azərbaycan ədəbiyyatında qeyri-adi olan soğan obrazına müraciət edir. Məndən olsaydı burada soğan obrazının özünü böyük hərflə yazardım.

Soğanın xeyirli tərəfləri də var. Özü də lap çox. Amma axı soğanın acılıq dadı da var. Müəllifin əsərə yazıçı intuisiyası ilə acılıq dadından gəlməsi təsadüfi deyil. O, bu acılığın içindəki mahiyyəti insanların bir-birinə münasibətində aşkara çıxarır.

İnsanlar acılığın - zamanın gətirdiyi siyasi acılığın təsiri altında təbiətini dəyişməkdədir. Başqa sözlə, acılıq zəhərə çevrilməkdədir. Azər Abdullanın soğan obrazı çoxmənalılıq qatına görə orjinaldır.

Hadisələr qatarda baş verir. Bir dayanacaqdan, o biri dayanacağacan keçən yolda... ancaq bu qısa müddət ərzində nələr meydana çıxmır. Millətçilik ruhu ilə zəhərlənmiş erməni gənclərin hərəkətləri göstərir ki, onlar qətiyyən komunizmə türklərlə bir yerdə getmək xülyasında deyillər. Ən azı həmin kommunizmə getmək istəyərlər. Bu şərtə ki, həmin kommunizmin bünövrəsini quran türkləri bu qatardan bayıra atsınlar. Doğrudur, sadə, səmimi düşünən ermənilər də var. Müəllif onların da sağlam niyyətlərinə qapı bağlamır.

Hadisələr göstərir ki, müəllif özünün guya müdafiə etdiyi baş qəhrəmanı heç əslində müdafiə eləmir. Günahı onun sadəlövhlüyündə görür.

Yaşa dolmuş Əhmədov, dünya görmüş Əhmədov, elində, obasında tanınan, siyasət çirkabına bulaşmamış ermənilər tərəfindən hörmət, izzət göstərilən bir kişinin taleyi müəyyən aldanışlar zamanı yaşamış olan etnosun taleyidir. Əsərdə hadisələrin gedişatı sırf insani münasibətlər üzərində qurulub. Müəllif kimsənin tərəfində deyil, hətta o, yeri gələndə, atasının sadəlövhlüyünə qəzəblənən oğul obrazındadır.

Dünyanı görməli, gəzməli, bir sözlə, yaşamalı həyat kimi təqdim etmək istəyən müəllif sevgi motivinə köklənir. Və bunu elə ustalıqla, hadisələrin arxa planında elə məhrəm bir duyğu ilə aparır ki, hətta əsəri oxumağa köklənməyən oxucu belə hiss eləmir. Bununla da müəllif əsl sevginin, böyük məhəbbətin necə gizlində olduğuna, neçə illər boyu xəlvətdə qala biləcəyinə işarə vurur. Müəllifin düşüncəsinə görə sevgi nə qədər müqəddəsdirsə, o, dəyərləri qoruya bilmək dərəcəsinə görə qiymət ala bilər. Zamanını, dövrünü ötürmüş qoca Qəmərlidə olan sevgisindən yana bütün yaddaşından belə imtina etməyə hazırdır. Təki o, sevgilisinin yaşadığı, hətta güman etdiyi stansiyada düşsün və həyatını burada başa vursun.

Müəllif Azər Abdulla kimsəyə nəsib olmayacaq bir ustalıqla xəlvət sevgi hekayəsinin faciəsini yaradır. Guya ki, əsər milli, şovinist hisslərin təsiri altında insanlığını itirmiş gənclərin yol boyu əxlaqsız, hətta cinayətkar hərəkətlərindən bəhs edir. Amma yox, müəllif bütün bunları ötəri hesab edir, dünyanın bir acılıq dadı kimi görür. Əbədi olan dünyanın mənəvi tarazlığını qoruyan sağlam sevgilərdir. Həqiqi sevgi duyğuları altında ömrünü - müvəqqəti dünyasını əbədi dünyaya dəyişmək istəyənlərdir.

Qoca ömrünün gəncliyində qoyub gəldiyi sevgisini yada salanda millətçilik duyğuları ilə onu ölümün ağzına itələyən erməni gənclərinin hərəkətlərini sanki görmür, duymur. Halbuki o, daha uca dünyadadır.

Təəssüf edirəm, niyə indiyə qədər müəllifin "Qəmərlidən keçən qatar", "Sarı tağ", "Şaftalı qoxusu" əsərlərinə film çəkilməyib. Hazır, canlı ssenarilərdir.

Azər Abdullanın nəsrdə portret yaratmaq gücü, bəlkə də, ona görə mükəmməldir ki, rəssamdır və rəssamlıqda portret ustadıdır; bütün bunlar onun görünməyən tərəfləridir.

Azər Abdullanın "Kəpənək bayramı" kitabındakı hər əsərinə ayrıca bir yazı həsr etməyə dəyərdi. Və buna sərf etdiyim vaxta təəssüf etməzdim. Var, bəli, belə adamlar var. Kimsəyə heç nə demirlər. Tarixə, millətə, Vətənə xidmət edirlər.

Azər Abdulla 1 aprel 1940-cı ildə anadan olub. Bu yazı Azər Abdullanın ad günü üçün nəzərdə tutulmuşdu.

Onsuz da Azər Abdulla həyatda baş verənləri tale, bəxt yazısı kimi qəbul edir.

Əgər belədirsə, məni bağışlayar.

***Əli Rza XƏLƏFLİ***
***18.05.2020***

Kredo.-2020.-18 may.-S.1.